# AZƏRBAYCAN VETERANI

Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının orqanı

04 (77) 28 fevral 2017-ci il İctimai-siyasi qəzet


## M.A.Əliyevanın Azərbaycan Respublikasının Birinci vitse-prezidenti təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

**Azərbaycan Respublikası Konstitusiyasının $103^1$-ci maddəsinin I hissəsini rəhbər tutaraq qərara alıram:**

**Mehriban Arif qızı Əliyeva Azərbaycan Respublikasının Birinci vitse-prezidenti təyin edilsin.**

**İlham Əliyev**

**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 21 fevral 2017-ci il.**



## Akademik Həsən Əliyevin 110 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2017-ci ildə Azərbaycanın görkəmli təbiətşünas alimi, respublika Dövlət Mükafatı laureatı, əməkdar elm xadimi, akademik Həsən Əlirza oğlu Əliyevin anadan olmasının 110 illiyi tamam olur.

Azərbaycanda coğrafiya və torpaqşünaslıq elmlərinin müxtəlif sahələrinin təşəkkül tapmasında, bir sıra yeni elmi istiqamətlərin bugünkü simasının müəyyənləşməsində Həsən Əliyevin müstəsna xidmətləri vardır. Alim bütün zəngin fəaliyyəti boyunca ətraf mühitin mühafizəsi, ekoloji tarazlıq və ölkənin təbii sərvətlərindən səmərəli istifadə üzrə kompleks proqram və silsilə layihələri daim uğurla həyata keçirmişdir.

Azərbaycanın elm xəzinəsinə dəyərli töhfələr vermiş görkəmli alim, bacarıqlı elm təşkilatçısı və tanınmış ictimai xadim Həsən Əliyevin 110 illik yubileyinin layiqincə keçirilməsini təmin etmək məqsədi ilə, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

1. Azərbaycan Milli Elmlər Akademiyası Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi ilə birlikdə Həsən Əliyevin 110 illik yubileyinə həsr olunmuş tədbirlər planını hazırlayıb həyata keçirsin.
2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev**

**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 7 fevral 2017-ci il.**

## İlham Əliyev Türkiyənin qida, kənd təsərrüfatı və heyvandarlıq nazirinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib

Prezident İlham Əliyev Türkiyə Respublikasının qida, kənd təsərrüfatı və heyvandarlıq naziri Faruk Çelikin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Nazir Faruk Çelik Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın və Baş nazir Binəli Yıldırımın salamlarını dövlətimizin başçısına çatdırdı. Türkiyəli nazir Prezident İlham Əliyevin tövsiyəsi ilə İslam Əməkdaşlıq Təşkilatının Əmək Mərkəzinin Bakıda yaradılmasına və uğurla fəaliyyət göstərməsinə görə dövlətimizin başçısına minnətdarlığını bildirdi. Faruk Çelik hazırda Türkiyənin Qida, Kənd Təsərrüfatı və Heyvandarlıq Nazirliyi ilə Azərbaycanın Kənd Təsərrüfatı Nazirliyi arasında sıx əməkdaşlığın yaradıldığını dedi.

Prezident İlham Əliyev Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanla bu yaxınlarda telefon danışığını və Baş nazir Binəli Yıldırımla Münxendə görüşünü məmnunluqla xatırladı. Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin bu gün Bakıda keçirilən növbəti toplantısının önəmini qeyd edən dövlətimizin başçısı Türkiyə Respublikasının energetika və təbii sərvətlər naziri Berat Albayrakla səmərəli görüşün olduğunu vurğuladı.

Görüşdə ölkələrimizin kənd təsərrüfatı nazirlikləri arasında əlaqələrin yaxşı potensiala malik olduğu bildirildi, əməkdaşlığımızın perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.



Dövlətimizin başçısı Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın və Baş nazir Binəli Yıldırımın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyənin Prezidentinə və Baş nazirinə çatdırmağı xahiş etdi.


Azərbaycan Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənovun veteranlarla görüşü Səh.2

Respublika Veteranlar Təşkilatında Xocalı soyqırımının 25-ci ildönümü münasibəti ilə tədbir keçirilmişdir Səh. 3

MÜHARİBƏ VETERANININ ÖZÜ VƏ SÖZÜ Səh. 7

# Azərbaycan Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənovun Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatında veteranlarla görüşü



**18 fevral 2017-ci il tarixində Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatında Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Prezident Administrasiyasının ictimai-siyasi məsələlər şöbəsinin müdiri Əli Həsənovla veteranların görüşü keçirilmişdir.**

Əli Həsənov çıxışına başlamazdan öncə Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin veteranlara xüsusi salamlarını və ən xoş arzularını çatdırmış, dövlət başçısının veteranlarla bağlı məsələləri daim diqqət mərkəzində saxladığını və bu gün də məhz



Prezidentin tapşırığı ilə onlarla görüşə gəldiklərini bildirmişdir.

Prezidentin köməkçisi bu il yanvar ayının 3-ü və 25-də 95 yaşları tamam olmuş İkinci Dünya müharibəsi veteranları, Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının üzvləri Aleksandr Aleksandroviç Qritçenkonun və Səttarova Fatma Hüseyn qızının Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin sərancamı ilə 30 yanvar 2017-ci il "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif olunduqlarını xatırlatmışdır. O, hər iki qocaman veteranın bu yüksək dövlət mükafatına ölkənin ictimai həyatında səmərəli fəaliyyətlərinə və gənclərin vətənpərvərlik tərbiyəsindəki xidmətlərinə görə layiq görüldüklərini vurğulayaraq, veteranların daim fəal olmalarından qürur duyduqlarını, onların yalnız mənsub olduqları ailələrin deyil, bütün xalqın ağsaqqalı, ağbirçəyi olduqlarını qeyd etmişdir.

Azərbaycanda müharibə əlillərinə və veteranlarına yüksək dövlət qayğısı göstərildiyindən danışan Ə.Həsənov respublikada bu siyasətin əsasının Ümummilli lider Heydər Əliyev tərəfindən qoyulduğunu, Ulu Öndərin Azərbaycana yenidən rəhbərliyə qayıtması ilə veteranlar təşkilatının fəaliyyətinin canlandığını, veteranlara münasibətin kardinal şəkildə dəyişməsinin şəxsən şahidi olduğunu bildirmişdir. O, xüsusilə 1994-cü ildən etibarən bu istiqamətdə ardıcıl və məqsədyönlü addımların atıldığını, Ümummilli lider Heydər Əliyevin imzaladığı ilk Qanunlardan birinin məhz veteranların hüquqlarının bərpası ilə bağlı "Veteranlar haqqında" Azərbaycan Respublikası Qanunu (1994-cü il 28 iyun) olduğunu qeyd etmişdir. Bunula da yüksək səviyyəyə qaldırılan veteranlara dövlət qayğısının hazırda Azərbaycan Respublikası Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini, bu məqsədlə təkcə cari ilin əvvəllərində artıq bir neçə sərancamın imzalandığını bildirən Ə.Həsənov bu günki təqdimatların da bu sahədə növbəti addım sübutu olduğunu vurğulamışdır.

Prezidentin köməkçisi Azərbaycan Respublikası Prezidentinin fəxri diplomlarını İkinci Dünya müharibəsi veteranları Səttarova Fatma Hüseyn qızına və Aleksandr Aleksandroviç Qritçenkoya təqdim etmiş, onlara cansağlığı, gələcək işlərində uğurlar arzulamışdır.

Fatma Səttarova və Aleksandr Qritçenko çıxış edərək yüksək təltifə və diqqətə görə Azərbaycan Respublikası Prezidentinə öz dərin minnətdarlıqlarını bildirmiş, İkinci Dünya müharibəsi cəbhələrində qazandıqları yaraların bu gün göstərilən belə yüksək qayğıdan sonra sanki sağaldığını vurğulamış, ölkənin ictimai həyatında və gənclərin vətənpərvərlik tərbiyəsində bundan sonra da səmərəli fəaliyyət göstərəcəklərinə əmin etmişlər. Hər iki veteran dövlət başçısı, Ali Baş Komandana, şanlı ordumuza, eləcə də bütün xalqımıza Azərbaycan torpaqlarının erməni işğalından azad edilməsi istiqamətindəki fəaliyyətlərdə uğurlar arzulamışlar. Onlar bütün veteranlar adından Azərbaycan xalqının qələbə gününün uzaqda olmadığına inandıqlarını ifadə etmişlər.

Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədr müavini, ehtiyatda olan polkovnik Cəlil Xəlilov çıxış edərək



Azərbaycan Respublikası Prezidentinin ölkə veteranlarını həmişə diqqət mərkəzində saxlamasından, onların problemlərinin birinci növbədə həll olunmasından danışmış, müharibə iştirakçılarının, əlillərinin sosial müdafiəsini gücləndirmək istiqamətində ardıcıl sərancam və fərmanlar imzalandığını qeyd etmişdir. O, bildirmişdir ki, Azərbaycan veteranları bu baxımdan bütün MDB məkanında ən çox qayğı və diqqətlə əhatə olunmuşlar və Ulu öndərin dediyi kimi veteranlara sözün həqiqi mənasında Azərbaycanın xəzinəsi kimi yanaşılır.

C.Xəlilov veteranların maddi rifah halını yaxşılaşdırılması və sosial müdafiəsinin gücləndirilməsinin onları daim ruhlandırdığını, özlərini daim sırada hiss etdiklərini vurğulamışdır. Azərbaycan veteranlarının dövlət başçımızın həyata keçirdiyi daxili və xarici siyasəti birmənalı dəstəklədiklərini və bu siyasətin gələcəkdə də uğur qazanması üçün bütün bilik və bacarıqlarını sərf edəcəklərini bildirmişdir.

Görüşün sonunda Əli Həsənov Veteran Təşkilatının qarşısında duran vəzifələri bundan sonra da layiqincə yerinə yetirəcəyinə inandığını, və bu gün də Təşkilatın fəaliyyətinin ümumən ölkə ictimayyəti tərəfindən razılıqla qarşılandığını qeyd etmişdir. O, Azərbaycan dövlətinin bütövlükdə ölkə vətəndaşlarının, xüsusilə veteranların sosial-maddi vəziyyətinin yaxşılaşması istiqamətində ardıcıl proqramlar həyata keçirdiyini, cari ildə də bu məsələlərin xusus diqqətdə saxlandığını ifadə etmişdir.

# Respublika Veteranlar Təşkilatında Xocalı soyqırımının 25-ci ildönümü münasibəti ilə tədbir keçirilmişdir

24 fevral 2017-ci ildə Respublika Veteranlar Təşkilatının inzibati binasında Xocalı soyqırımının 25-ci ildönümü münasibəti ilə tədbir keçirilmişdir.

Tədbirdən əvvəl Respublika Veteranlar Təşkilatının əməkdaşları, İkinci Dünya, Qarabağ müharibəsi, əmək və Silahlı Qüvvələr veteranları, ziyalılar, gənclər, media nümayəndələri



Xocalı soyqırımı qurbanlarının xatirəsinə ucaldılmış abidə kompleksini ziyarət edərək onun önünə tər güllər qoymuşlar.

Tədbir iştirakçıları Xocalı soyqırımı qurbanlarının, həmçinin Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü uğrunda canlarından keçmiş bütün şəhidlərimizin xatirəsini 1 dəqiqəlik sükutla yad etmişlər.

Tədbiri giriş sözü ilə Respublika Veteranlar Təşkilatının sədr müavini ehtiyatda olan polkovnik Cəlil Xəlilov açaraq demişdir: "Xocalı hadisəsi 20-ci əsrin ən qanlı soyqırımlarından biridir. Bu soyqırım etnik azərbaycanlılara qarşı Ermənistan silahlı qüvvələri tərəfindən Rusiyanın SSRİ dövründən Xankəndi şəhərində yerləşən 366-cı motoatıcı alayının köməkliyi ilə törədilmişdir. Zirehli texnikanın iştirak etdiyi bu qanlı hadisədə bir gecənin içində Xocalı şəhəri tamamilə yer üzündən silinmişdir. Nəticədə həmin vaxt Xocalıda mühasirə vəziyyətində qalmış 2500 nəfər sakindən 63-ü uşaq, 106-sı qadın, 70-i qoca olmaqla, 613 nəfəri qətliamın qurbanı olmuş, 1275 nəfər əsir götürülmüş, 150 nəfər itkin düşmüşdür. Soyqırımda 8 ailə tamamilə məhv edilmiş, 25 uşaq hər iki valideynini, 130 uşaq valideynlərindən birini itirmişdir. Yaralanan 487 nəfərdən 76-sı uşaq idi.

Xocalı soyqırımı ilə Azərbaycan xalqına vurulan mənəvi və psixoloji zərbənin ağırlığını bu gün də hər birimiz dərindən hiss edirik. Onun dəhşətli nəticələri hər bir azərbaycanlının qəlbini ağrıdır. Ancaq nə qədər ağır və dəhşətli olsa da, Azərbaycan xalqı sarsılmadı. Əksinə düşməni bir daha tanıdı və faciədən ibrət dərsi götürməklə, düşmənə layiqli cavab verməyə hər an hazır olmaq üçün özündə güc tapdı.

Bu sahədə Azərbaycan Respublikası Prezidenti möhtərəm İlham Əliyevin rəhbərliyi altında dövlət səviyyəsində aparılan genişmiqyaslı fəaliyyətin mühüm istiqamətlərindən biri Xocalı soyqırımının dünyada tanıdılmasıdır. Bu baxımdan bir neçə il əvvəldən başlanmış "Xocalıya ədalət" kompaniyası çərçivəsində görülən işlər xüsusilə uğurlu olmuşdur. Xocalı soyqırımı barədə həqiqətlərin müxtəlif beynəlxalq təşkilatlar səviyyəsində qaldırılması, erməni faşizminin mahiyyətinin dünya ictimaiyyətinə çatdırılması baxımından da əhəmiyyətli olmuşdur.

Respublika Veteranlar Təşkilatı da öz tədbirlərində, xüsusilə gənclərlə görüşlərdə onlara Xocalı soyqırımı, eləcə də Qarabağ müharibəsi ilə bağlı digər məlumatların çatdırılmasını daim diqqətdə saxlayır. Məqsəd gənclərin vətənpərvər ruhda yetişməsi, Vətəni düşməndən qorumağa, işğal altında qalan torpaqlarımızı azad etməyə hər an hazır olmalarıdır. Azərbaycan gəncliyinin, əksər hissəsini gənclərin təşkil etdiyi Ordumuzun bu şərəfli missiyanı həyata keçirməyə hər an hazır olduğuna şübhə yoxdur. Ötən ilin aprelində erməni hərbi birləşmələrinin təxribatının qarşısının uğurla alınması zamanı Azərbaycan əsgərinin göstərdiyi qəhrəmanlıqlar bunu bir daha sübuta yetirdi. Hazırda əksər gənclərimizin vətənpərvər, Vətəninə, torpağına bağlı insanlar kimi yetişməsi torpaqlarımızın erməni işğalından azad ediləcəyinə olan inamımızı daha da artırır.

Xocalı hadisələrinin dünyanın əksər dövlətləri, xüsusilə əsas söz sahibi sayılan ölkələri tərəfindən soyqırımı kimi qəbul edilməsi ilə Ermənistanın birmənalı olaraq təcavüzkar, işğalçı dövlət kimi tanıdılmasına, bununla isə Azərbaycanın ərazi bütövlüyünün təminatı üçün mühüm əhəmiyyət kəsb edən beynəlxalq dəstəyin daha da güclənməsinə nail olarıq. Azərbaycan dövlətinin, nüfuzlu






ictimai təşkilatların inamla apardığı bu müqəddəs işə dünyanın harasında yaşamasından asılı olmayaraq hər bir soydaşımız dəstək verməli, Xocalı harayına öz səsini qatmalıdır".

Daha sonra çıxış edənlər (hüquq elmləri doktoru Zahid Bəhramov, Azərbaycan Milli Qeyri-Hökumət Təşkilatları Forumunun (MQF) prezidenti Rauf Zeyni və digərləri) Xocalı soyqırımı barədə həqiqətlərin müxtəlif beynəlxalq təşkilatlar səviyyəsində qaldırılmasının əhəmiyyətindən, ölkənin müxtəlif təşkilatlarının, xüsusilə Respublika Veteranlar Təşkilatının bu istiqamətdəki fəaliyyətindən danışaraq, bu fəaliyyətin daha da gücləndirilməsinin zəruri olduğunu bidirdilər.

# Xocalım

Xocalım - qan yaddaşım,
Hər torpağın, hər daşın,
Vətən həsrəti ilə göyüm-göyüm göynəyir...

Xocalım -dərdim mənim,
Acı görmüş məskənim,
Bizdən imdad diləyir, göy üzü də inləyir...

Xocalım- şəhid şəhər,
Səndə qəmlidir səhər,
Torpağın qan ağlayır, ürəyimizi dağlayır...

Xocalım- bəxti qaram,
Qəlbimdəki yaram,
Tənha qalan evlərin yolumuzu gözləyir...

Xocalım -haray səsim,
Qırılsın səndən tilsim,
Yağı düşmən məhv olsun!
Üzünə günəş doğsun!

***Səidə Abdullayeva***

AZƏRBAYCAN VETERANI

# "Bakı nefti, qələbənin açarı. Şərəfli keçmiş, işıqlı gələcək. 1941-1945"

Fevralın 16-da Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivində Milli Məclisin iqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri, AMEA-nın həqiqi üzvü, akademik Ziyad Səmədzadənin rəhbərliyi ilə hazırlanmış "Bakı nefti, qələbənin açarı. Şərəfli keçmiş, işıqlı gələcək. 1941-1945" adlı kitabın təqdimatı keçirilib.



Z.Səmədzadə kitabın Prezident İlham Əliyevin 23 fevral 2015-ci il tarixində imzaladığı "1941-1945-ci illər müharibəsində qələbənin 70 illik yubileyinə hazırlıq və yubileyin qeyd olunması üzrə Tədbirlər Planı"nın təsdiq edilməsi haqqında Sərəncamına əsasən ərsəyə gətirildiyini deyib. Bildirib ki, kitab geniş və əhatəli məzmunlu malikdir: "Veteranlar bizim sərvətimizdir və şərəfimizdir", "Bakı nefti dünya siyasətinin tərkib hissəsidir", "Bakı neftinin qələbədə əvəzolunmaz rolu (faktlar və sənədlər)" və digər bölmələrdə Bakı əhalisinin və bütövlükdə, Azərbaycan xalqının 1941-1945-ci illər müharibəsində və faşizm üzərində qələbə çalınmasında danılmaz rolu işıqlandırılır.

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivinin direktoru Mais Bağırov deyib ki, Azərbaycan neftçilərinin, neftkimya və maşınqayırma sənayesi işçilərinin, dəmiryolçularının, dəniz donanmasının, tibb işçilərinin əməyi kitabda öz əksini tapır.

SOCAR-ın birinci vitse-prezidenti, akademik Xoşbəxt Yusifzadə Azərbaycanın neft tarixindən, "Əsrin müqaviləsi"nin ölkəmizin həyatındakı əhəmiyyətindən, neft-qaz sənayesində aparılan uğurlu islahatlardan danışıb.

Milli Məclisin deputatı, Respublika Ağsaqqallar Şurasının sədri Fəttah Heydərov, parlamentin aqrar siyasət komitəsinin sədri Eldar İbrahimov, deputat Fəzail İbrahimli, parlamentin gənclər və idman komitəsinin sədri Fuad Muradov və başqaları kitabla bağlı fikirlərini bölüşüblər.

Respublika Veteranlar Təşkilatının sədr müavini e.o polkovnik Cəlil Xəlilov tədbirdə çıxış etmişdir. O, kitabı Azərbaycan tarixinin işıqlandırılması baxımında yüksək dəyərləndirdi.

Daha sonra Cəlil Xəlilov çıxışında qeyd etdi: "Bu gün təqdimatı keçirilən "Bakı nefti qələbənin açarı. Şərəfli keçmiş, işıqlı gələcək 1941-1945" kitabı Azərbaycanın və onun xalqının İkinci Dünya Müharibəsində faşizm üzərində böyük qələbənin əldə olunmasında iştirakının bir sıra mühüm məqamlarına işıq salır. Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri, görkəmli akademik Ziyad Səmədzadənin rəhbərliyi altında ərsəyə gəlmiş bu kitab ümumiyyətlə, neft amilinin dünya siyasətində, bu və digər ölkələrdə hakimiyyət uğrunda mübarizələrdə oynadığı rolun üzə çıxarılması baxımından da olduqca əhəmiyyətlidir. Bu mənada Bakı neftinin bir əsrdən artıq müddətdə Azərbaycanın və ümumən regionun taleyinin müəyyənləşməsinə ciddi təsirləri tədqiqat süzgəcindən keçirilmiş, böyük dövlətlərin neft siyasətinin nəticələri təhlil edilmişdir. Əlbəttə, başlıca diqqət Bakı neftinin 1941-1945-ci illərdə müharibənin gedişinə göstərdiyi təsirə yönəldilmiş, haqlı olaraq faşizm üzərində böyük qələbədə onun əvəzolunmaz rolu tarixi faktların dili ilə çatdırılmışdır.

Azərbaycan xalqı İkinci Dünya Müharibəsində faşizmin məğlub edilməsinə həqiqətən də böyük töhfələr vermişdir. Bu barədə kifayət qədər yazılmış, deyilmiş, sənədli və bədii filmlər çəkilmişdir. Ancaq bu elə zəngin və əhatəli mövzudur ki, nə qədər araşdırılsa, yazılsa, çəkilsə də bitib-tükənən deyil. Qələbənin 70 illiyi münasibəti ilə Arzu xanım Əliyevanın baş prodüserliyi ilə çəkilmiş və nümaişi baş tutmuş "Hədəf Bakıdır. Hitler neft uğrunda döyüşü necə uduzdu" sənədli film bunu bir daha sübuta yetirdi. Film qeyd edilən sahədə indiyədək az məlum olan həqiqətləri üzə çıxarmaqla hələ neçə illər sonra da bu mövzunun öz aktuallığını saxlayacağını göstərdi.

Azərbaycan xalqı İkinci Dünya Müharibəsində təkcə cəbhəyə yola saldığı 720 min nəfər oğul və qızı, 5 milli diviziyası: 77-ci dağatıcı, 223-cü, 396-cı, 402-ci və 416-cı milli atıcı diviziyaları, ümumən 87 qırıcı batalyon, 1124 özünümüdafiə dəstəsi ilə iştirak etməyib. Xalqımız elliklə bu müharibəyə qoşulmaqla qələbəyə böyük töhfələr verib. 300 mindən çox soydaşımızın o cümlədən partizan hərəkatlarının apardığı qanlı döyüşlərdə həlak olmaları, minlərlə azərbaycanlının qəhrəmancasına vuruşaraq ən yüksək fəxri adlara, orden-medallara layiq görülmələri, cəbhəyə yola salınan neçə adda silah və sənaye məhsulları, min tonlarla ərzaq, paltar karvanları, ökə hospitallarında cəbhədə yaralanmış 440 min nəfərin müalicəsinin təşkil və s. onlarla digər faktlar Azərbaycan xalqının bəşəriyyətin dəhşətli bəladan xilası naminə xalqların birgə nailiyyətinə verdiyi töhfələrdir. Tarix bunları unuda bilməz və bu gün bizlərə təqdim olunan kitabın başlıca missiyası da budur: tarixin yaşadılması, həqiqətlərin uca səslə bəyan olunması. Bizim buna hazırda daha böyük haqqımız çatır. Çünki, faşizmin məğlub olmasına böyük qurmanlar və əvəzsiz töhfələr vermiş bir xalq bu gün özü alman faşizmindən daha amansız olan ermənin faşizminion təcavüzünə məruz qalıb. Bu gün 20 faizdən çox Azərbaycan ərazisini işğal altında saxlayan Ermənistan tərəfi özünün təcavüzkarlıq siyasətini açıq və arxayın şəkildə davam etdirir. Hətta bunula da qalmır, alman faşizminə xidmət göstərmiş erməni cəlladları general Dronun, Qaregin Njdenin bəraətinə çalışır. Ötən il Təşkilatımız Azərbaycan veteranları, ümumən cəmiyyəti adından bu cinayətləri birmənalı şəkildə qınayan və rədd edən, ermənilərin faşizmi dirçəltmək, onun əil qana batmış nümayəndələrinə bəraət qazandırmaq cəhdlərinin ifşasına biganə qalmamağa səsləyən müraciət hazırlayaraq Azərbaycan veteranları adından MDB ölkələrinin dövlət və hökumət başçılarına, həmin ölkələrin parlament üzvlərinin elektron ünvanlarına, veteran təşkilatlarına, beynəlxalq təşkilatlara göndərdik. Müraciətimizə Rusiya, Belarus, Ukrayna, Qazaxıstan və digər ölkələrin dövlət rasmilərindən, parlament üzvlərindən, ictimaiyyət nümayəndələrindən və s ünvanlardan cavablar aldıq. Həmin müraciətin mətnini əməkdaşlarımız xarici ölkələrdə keçirilən bir sıra tədbirlərdə də səsləndidilər. Ancaq təbii ki, bütün bunlar erməni faşizminin ifşasına yönəlmiş ardıcıl fəaliyyətimizin yalnız bir hissəsidir. Bu fəaliyyət torpaqlarımız işğal altından azad ediləcəyi gününə qədər daim gücləndiriləcək aparılmalıdır. Bu məqsədlə möhtərəm Prezident Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən ardıcıl iş aparılır. Ötən ilin aprelində cəbhə xəttində baş verən hadisələr Azərbaycanın güclü orduya malik olduğunu, qəhrəman Azərbaycan əsgərinin torpaqlarımızı işğaldan azad etməyə qadir olduğunu bir daha sübut etdi. Vaxtınızı çox da almadan onu da qeyd etmək istərdim ki, gənclərin hərbi vətənpərvərlik ruhunun gücləndirilməsi istiqamətində apardığımız işin səmərən daim yüksəltməyə çalışmağımızın əsasını da məhz onların hər an Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüşlərə hazır olmalarıdır.

Təqdimatına toplaşdığımız kitabın bu istiqamətdə gələcəkdə həyata keçiriləcək tədbirlərdə geniş istifadəsinə görə də biz onu ərsəyə gətirənlərə, xüsusilə hörmətli Ziyad müəllimə çox sağ olun deyir və yeni elmi yaradıcılıq uğurları arzulayırıq".




Kitabın təqdimetmə mərasimi münasibətilə Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivində sərgi də təşkil olunub. Sərginin "1941-1945-ci illər müharibə iştirakçılarına və veteranlara qayğı və diqqət", "Böyük Vətən müharibəsi tariximizin yaddaşında. 1941-1945", "Boyevoy Listok" adlı stendlərində ümummilli lider Heydər Əliyevin veteranlarla görüşləri, onlara göstərdiyi diqqət və qayğı fotoşəkillərdə və imzaladığı sənədlərdə öz əksini tapır.

"Böyük Vətən müharibəsi tariximizin yaddaşında" adlı stenddə Bakı neftinin dünya siyasətində və Sovet dövlətinin bu müharibədə qələbə qazanmasında danılmaz rolu dövrün ayrı-ayrı siyasətçilərinin fikirlərində yer alır.

# HƏRB ELMİNƏ HƏSR OLUNAN ÖMÜR

1991-ci ildə Azərbaycan öz dövlət müstəqilliyini yenidən bərpa etdikdən sonra ilk olaraq milli ordu quruculuğu prosesində Azərbaycan Silahlı Qüvvələrinin yaradılması və formalaşmasına başlanıldı. O zaman Böyük Vətən müharibəsində iştirak edən, artıq ehtiyatda olan peşəkar, təcrübəli hərbçilər də istər nəzəri, istərsə də praktik baxımdan köməklərini əsirgəməyərək, Silahlı Qüvvələrimizin təşkil olunmasına öz bövük töhfələrini verdilər. Belə vətənpərvər, ağsaqqal veteranlarımızdan biri də bu günlərdə 95 illik yubileyini qeyd edəcəyimiz polkovnik Mustafa Məhərrəmovdur.





Mustafa Məhərrəmov Böyük Vətən müharibəsinin əvvəllərində yaranan, şəxsi heyətinin tərkibi əsasən azərbaycanlılardan ibarət olan 416-cı Taqanroq diviziyasının döyüşçü qəhrəmanlarından biri olub.

Mustafa Həbib oğlu Məhərrəmov 1922-ci il fevralın 25-də İsmayıllı rayonunun Basqal kəndində dünyaya göz açmışdır. O, 1941-ci ilin iyulunda İsmayıllı rayon Hərbi Komissarlığına cəbhəyə getmək üçün ərizə ilə müraciət edir. Lakin rayonda qalıb kolxozda təşkilat işlərində yardımçı ehtiyacı olduğundan Mustafanın ərizəsini qəbul etmirlər. İnadından və məqsədindən dönməyən Mustafa ikinci dəfə də cəhd edir. Növbəti cəhdi uğurlu alınan Mustafa nəhayət, 1941-ci ilin dekabrın 15-də könüllü olaraq cəbhəyə faşizmlə ölüm-dirim savaşına yola düşür.

Gənc Mustafa Tiflis şəhərindəki artilleriya məktəbində müharibə dövrünün tələbindən irəli gələn ixtisas hazırlığı kursunu altı ay ərzində bitirərək, leytenant rütbəsində 416-cı atıcı diviziyasına göndərilir. Diviziyanın tərkibindəki 1374-cü alayın atıcı taqımının komandiri təyin olunan gənc leytenant Mustafa Məhərrəmov əsgərlərinin döyüş hazırlığı ilə ciddi məşğul olur və onlarda düşmənə qarşı barışmazlıq hissləri - nifrət, kin tərbiyə edir. Gənc komandir alayın hücum əməliyyatlarının birində iki düşmən tankını məhv edir, neçə-neçə atəş nöqtəsini susdurur və müşahidə məntəqəsini dağıdır. Döyüşlərdə göstərdiyi xüsusi şücaətlərinə görə taqım komandiri leytenant Mustafa Məhərrəmov "Qırmızı Ulduz" ordeninə layiq görülür. Gərgin döyüşlərin birində ağır yaralanan M.Məhərrəmov müalicə almaq üçün hospitala göndərilir. Yaralarının tam sağalmasını gözləməyən gənc zabit yenidən döyüşlərə atılır və 402-ci Azərbaycan atıcı diviziyasında batareya komandiri təyin olunur. M.Məhərrəmov faşizm üzərində böyük qələbəyə qədər ön sırada olur və ən ağır, əhəmiyyətli döyüşlərdə göstərdiyi igidlikləri ilə fərqlənir.

Böyük Vətən müharibəsi qələbə ilə başa çatdıqdan sonra Mustafa Məhərrəmovun komandirlik bacarığı yüksək qiymətləndirilir. O, 1951-ci ildə təhsilini davam etdirmək məqsədilə Leninqraddakı Topçuluq Akademiyasına göndərilir. 1956-cı ildə akademiyanı fərqlənmə diplomu ilə uğurla bitirən M.Məhərrəmov Türküstan Hərbi Dairəsində xidmətə başlayır. O, diviziya komandiri, diviziya qərargahı rəisinin müavini, Daşkənd Hərbi Məktəbində baş müəllim vəzifələrində xidmət edir.

Sonralar Mustafa müəllim orduda xarici ölkə zabitlərinə dərs keçmək zərurəti ilə əlaqədar Moskva Xarici Dillər İnstitutuna daxil olur və ingilis dili ixtisası üzrə oranı müvəffəqiyyətlə bitirir. 1966-cı ildə Vətənə dönən Mustafa Məhərrəmov Azərbaycan Politexnik İnstitutunun hərbi kafedrasına tədris hissə rəisi vəzifəsinə təyin edilir. O, bu tədris müəssisəsində qazandığı bilik və təcrübələrini tələbələrinə öyrədir və məzunları zabit rütbəsinə təqdim edirdi. Burada işlədiyi dövrdə yüksək peşəkarlığı ilə seçilən Mustafa müəllim "Təhsil əlaçısı" döş nişanı ilə təltif olunur. 1979-cu ilin yanvarın 5-də SSRİ Müdafiə nazirinin təşəkkür əmri ilə ehtiyata buraxıldıqdan sonra M.Məhərrəmov 13 il Azərbaycan İnşaat Mühəndisləri İnstitutunda xüsusi şöbənin müdiri vəzifəsində çalışır.

Müstəqil Azərbaycanda ordu quruculuğuna başlanan vaxtlarda ehtiyatda olan polkovnik M.Məhərrəmov Azərbaycan Respublikası Müdafiə Nazirliyi sistemində çalışmağa başlayır. O, Hərbi Elmi Tədqiqat Mərkəzində normativ sənədlərin işlənib hazırlanması üzrə şöbənin rəisi və Müdafiə nazirinin hərbi strateji məsələlər üzrə müşaviri vəzifələrində işləyir. Həmçinin,1992-cı ildə Müdafiə nazirinin müvafiq əmri ilə 4-cü Ordu Garnizonunun Döyüş Şöhrəti muzeyinin bazasında Hərb Tarixi Muzeyi yaradılır. Məhz Mustafa müəllim Hərb Tarixi Muzeyinin bütün hüquqi-normativ və təşkilati işlərini həyata keçirir.

1993-1997-cı illərdə polkovnik M.Məhərrəmov Müdafiə Nazirliyinin "Hərbi Bilik" jurnalının idarə heyyətində çalışarkən, Müdafiə Nazirliyinin hərbi dərslikləri, hərbi texnikanın istifadəsinin təlimatları, hərbi kəşfiyyatın döyüş təlimatları, ordunun nizamnaməsinin və s. hüquqi-normatif sənədlərin hazırlanmasında müstəsna rolu olub. Onun məktəbini keçən texniki ixtisaslara malik zabitlərin əksəriyyəti bu gün Azərbaycan Silahlı Qüvvələrinin tərkibində məsul vəzifələrdə xidmətini davam etdirir. 1995-ci ildə Müdafiə Nazirinin müvafiq əmri ilə göstərdiyi xidmətlərə görə Mustafa müəllim Şöhrət Ordeni ilə təltif edilmişdir. Mustafa müəllim hansı vəzifədə olursa-olsun, hərbi mütəxəssis kimi özünün əməli-nəzəri, elmi potensialını nümayiş etdirərək yorulmadan çalışmışdır.

O hər biri 9000 min sözlük olan "Rusca-Azərbaycanca hərbi lüğət", "Azərbaycanca-rusca hərbi lüğət" və 18000 min sözlük "Türkcə-Azərbaycanca hərbi lüğət" kitablarının müəllifidir. 90000 min sözlükdən ibarət Türk-fars-ərəb-Azərbaycan hərbi lüğəti" Mustafa müəllimin ömrünün son dövrlərində üzərində işlədiyi kitablarından idi. Lakin amansız ölüm həmin lüğəti axıra qədər işləyib hazırlamağa imkan vermədi...

Mustafa müəllimin əziz xatirəsi onu tanıyanların qəlbində əbədi yaşayacaq. Onun keçdiyi mənalı, şərəfli ömür yolu hər kəsə örnəkdir.

**KAMRAN BEHBUDOV**

# Bu görüşün Bakıda keçirilməsi sübut etdi ki, Azərbaycan dünyada etibarlı tərəfdaş kimi qəbul olunur

*Cəlil Xəlilov:* Bu görüşün Bakıda keçirilməsi sübut etdi ki, Azərbaycan dünyada etibarlı tərəfdaş kimi qəbul olunur.

Amerika Birləşmiş Ştatlarının Baş Qərargahlar rəisi general Cozef Danfordun və Rusiya Federasiyası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi, ordu generalı Valeri Gerasimovun görüşünün Bakıda keçirilməsi təsadüfi deyil. Azərbaycan həm ABŞ, həm də Rusiya ilə qarşılıqlı faydalı əməkdaşlıq və strateji tərəfdaşlıq əlaqələrinə malikdir. Daim inkişaf edən Azərbaycan iqtisadi, hərbi imkanları, əlverişli coğrafi şəraiti ilə regionun mühüm əhəmiyyətli dövləti hesab edilir.

Bu fikirləri amerikalı və rusiyalı generalların Bakıda keçirilən görüşünü AZƏRTAC-a şərh edən Respublika Veteranlar Təşkilatının sədr müavini, ehtiyatda olan polkovnik Cəlil Xəlilov bildirib.

Cəlil Xəlilov deyib ki, Azərbaycan bölgənin bir çox ölkələrindən fərqli olaraq, həm ABŞ, həm də Rusiya ilə yaxın əməkdaşlıq münasibətlərinə, strateji tərəfdaşlıq əlaqələrinə daim sadiqdir və bu əlaqələrin daha da inkişaf etdirilməsinə ciddi səylər göstərir. Bu gün Azərbaycan və onun Prezidenti İlham Əliyev beynəlxalq miqyasda, xüsusilə ABŞ və Rusiya prezidentləri tərəfindən etibarlı tərəfdaş kimi qəbul olunur. Dünya dövlətləri Azərbaycanla qarşılıqlı əməkdaşlıq əlaqələrinin inkişafında maraqlı olduqlarını nümayiş etdirirlər.

Dünyanın güc mərkəzləri, nüfuzlu beynəlxalq təşkilatları, aparıcı siyasi, iqtisadi və humanitar dairələri ilə sıx əlaqələr qurmuş Azərbaycan BMT Təhlükəsizlik Şurasında iki illik üzvlük fəaliyyəti dövründə üzərinə düşən vəzifələrin öhdəsindən uğurla gəldiyini sübuta yetirib. Özü erməni təcavüzünə məruz qalan ölkə olmasına baxmayaraq, Azərbaycan dünyada sülhyaratma prosesində fəal iştirak edir, səmərəli təklif və təşəbbüslərlə çıxış edir, öz praktiki fəaliyyəti ilə sülhün və təhlükəsizliyin möhkəmlənməsinə dəyərli töhfələr verir. Azərbaycan regional konfliktlərin, qarşıdurmaların, gərginliyin aradan qaldırılmasında fəal rol oynayır, barışdırıcı missiya həyata keçirir. Bütün bunlar dünyanın güc mərkəzlərinin onun paytaxtını görüş yeri kimi seçməsini şərtləndirən digər amillər sayıla bilər.

Respublika Veteranlar Təşkilatının sədr müavini qeyd edib ki, Azərbaycan regionda yeni əməkdaşlıq formatlarının əsas təşəbbüskarı kimi çıxış edir və bütün səylərini regionun inkişafı və rifahına yönəldir. Azərbaycanın həyata keçirdiyi siyasət nəinki regionda, daha geniş coğrafiyada iqtisadi-ticarət əlaqələrinin inkişaf etdirilməsinə və bütün ölkələrin bu inkişafdan faydalanmasına yönəlib. Bütün bunların ölkəmizin müsbət beynəlxalq imicinin formalaşmasında, əməkdaşlıq əlaqələrinin genişlənməsində danılmaz təsiri olub. Bu baxımdan, Bakının görüş yeri kimi seçilməsinin bu şəhərin sırf coğrafi baxımdan əlverişli ərazidə yerləşməsi ilə bağlanması doğru hesab edilə bilməz. Bu gün həyata keçirilən uğurlu daxili və xarici siyasət nəticəsində Azərbaycan bölgədə ən təhlükəsiz ölkədir. Məhz bu səbəbdən də görüş üçün Bakının seçilməsi təəccüblü deyil.

Əlbəttə, burada Yaxın Şərqdəki mövcud vəziyyət, Tramp administrasiyasının xüsusilə Rusiya tərəfi ilə mübahisəli məsələlərdə hansısa razılaşmalara nail olmaq istəyi də nəzərdən qaçırıla bilməz.



Məlumdur ki, əvvəlki rəhbərlik zamanı ABŞ-Rusiya münasibətlərində müəyyən gərginliklərin olması dünyanın müxtəlif regionlarında arzuolunmaz proseslərin yaşanmasına, beynəlxalq təhlükəsizliyin təmin edilməsində problemlərin meydana çıxmasına səbəb olmuşdu. Buna görə də ABŞ-Rusiya münasibətlərinin normal məcraya yönəlməsi qeyd edilən problemlərin həllini tapacağına, dünyada sabitliyin, təhlükəsizliyin möhkəmləndiriləcəyinə ümidləri artırıb. Azərbaycanın bu müstəvidə qazancı ərazi bütövlüyünün təmin edilməsinə nail olmaq üçün Dağlıq Qarabağ münaqişəsinin həllinə cavabdeh olan Minsk qrupunun həmsədr ölkələri, əsas söz sahibi sayılan ABŞ və Rusiya tərəfindən konkret addımların atılması ola bilər.

**AZƏRTAC**

# Vətən mənə oğul desə nə dərdim, Mamır olub qayasında bitərdim!

***Fərrux Budaqov Böyük Vətən müharibəsinin iştirakçısı, əmək veteranı, əməkdar müəllimdir. Müəllimin gələcəyimiz olan uşaqların formalaşmasında, gənclərə milli runun aşılanmasında göstərdiyi prinsipial mövqe ailəsində də özünü büruzə vermiş, vətənpərvər, xalqını, torpağını canı qədər sevən övladlar yetişdirmişdir.***

Hansı peşənin sahibi olursansa ol öz əməllərinə və gördüyün faydalı işlərə görə hörmət, nüfuz qazanmağa çalışmalısan. Ömrünü müqəddəs müəllim peşəsinə həsr edən, gənc nəslin vətənpərvər ruhda yetişməsi üçün bütün qüvvə və bacarığını əsirgəməyən Qazax şəhər Səməd Vurğun adına orta məktəbin müəllimi Fərrux Budaqov doğma elində insanlar arasında yüksək nüfuzu ilə seçilən ziyalılardandır.

Məhz belə bir ailə tərbiyəsinin, Vətən sevgisinin nəticəsidir ki, F.Budaqovun oğlu Alik Budaqov Dağlıq Qarabağ uğrunda gedən döyüşlərdə fəal iştirak etmiş, erməni işğalçılarına qarşı mübarizədə mərdliyi, şücaəti ilə seçilmişdir. Qazax rayonunun Qızılhacılı kəndi uğrunda gedən döyüşlərdə 16 nəfərin erməni yaraqlılarının mühasirəsindən çıxmasında onun qorxmazlığı, cəsurluğu bir daha özünü göstərmiş, əməliyyatın uğurla başa çatmasında mühüm rol oynamışdır.

"Ot kökü üstə bitər" - deyiblər müdriklərimiz. Bu müdrik kəlam Budaqovlar ailəsinin timsalında bir daha özünü doğruldur, mərdliyin, Vətən təəssübkeşliyinin qanla, genlə gəldiyini sübuta yetirir. Belə ki, Fərrux müəllimin nəvəsi Budaqov Rauf Alik oğlu da atasının yolunu seçmiş, hərbi xidmət dövründə nümunəvi əsgər kimi tanınmış, ən çətin tapşırıqları yerinə yetirməkdən belə, çəkinməmişdir. Sözsüz ki, onun yüksək səviyyəli əsgər kimi özünü göstərməsində hələ uşaqlıqdan atası ilə dəfələrlə hərbi əməliyyat bölgəsində olması mühüm rol oynamışdır. O, atasının və onun döyüş yoldaşlarının erməni işğalçılarına qarşı mətin mübarizələrini uşaqlığının daş yaddaşına yazmış, əsl Vətən oğluna torpağını qorumaq üçün hansı keyfiyyətlərin lazım olduğunu layiqincə əxz etmiş, erməni qaniçənlərinə qarşı nifrət ruhunda yetişmişdir. Təəssüf ki, ona torpaqlarımızın erməni işğalçılarından azad ediləcəyi günü görmək, atasının nakam qalan arzularını gerçəkləşdirmək nəsib olmadı. Rauf Budaqov 2005-ci il iyul ayının 5-də xidməti vəzifəsini yerinə yetirərkən erməni gülləsinə tuş gəldi.

Rauf Budaqovun ölümündən xeyli vaxt keçsə də, onu tanıyanlar, doğmaları, yaxınları yalnız bir ümidlə yaşayır, düşmən tapdağında qalan torpaqlarımızın ölkə Prezidenti İlham Əliyevin məqsədyönlü siyasəti sayəsindəl azad ediləcəyi günün uzaqda olmadığına qəlbən inanırlar. Artıq 90 ildir ki, fəaliyyət göstərən Qazax rayonu Canallı kənd orta məktəbində Fərrux müəllimin təşəbbüsü və təşkilatçılığı ilə keçirilən çoxsaylı tədbirlərdə də bu fikirlər vurğulanır, kənd sakinləri, şagirdlər Rauf Budaqovun həyat yolunu, onun mübariz, qorxmaz Azərbaycan əsgəri kimi ermənilərə qarşı amansız mövqeyini bir vətənpərvərlik nümunəsi kimi qəbul edirlər. Bütün toplantılarda Rauf Budaqovun xatirəsinin əbədiləşdirməsi üçün təkliflər səsləndirilir, gələcək nəsillərin torpaq uğrunda canlarını fəda etmiş Vətən oğullarından örnək almasının vacibliyi vurğulanır.

Fərrux Budaqov oğlu və nəvəsi həyatdan nakam getsə də, bu gün də ruhdan düşmür, təcrübəli müəllim, nüfuzlu



ağsaqqal kimi öz bilik və bacarığını gənc nəsildən əsirgəmir. O, imkansızlara əl tutur, öz əməlləri ilə insanları mərhəmətə, birliyə, həmrəyliyə səsləyir. Məhz yorulmaz fəaliyyətinə, səmərəli işinə görə o, Təhsil Nazirliyi tərəfindən təhsildə nailiyyətlərə görə əmək veteranı adına layiq görülüb. İnanırıq ki, həyatını gənc nəslin yetişməsinə həsr etmiş Fərrux müəllimin arzuları çin olacaq, Azərbaycanın xoşbəxtliyi, işıqlı sabahı üçün çalışan insanların amalları tezliklə reallaşacaqdır. Ölkəmizin dinamik inkişafı, Azərbaycanın dünyada artan nüfuzu bunu deməyə əsas verir. Bu gün Azərbaycanın səsi ən ali kürsülərdən gəlir və ölkəmizin nüfuzu getdikcə artır.

Fərrux müəllim, sizə can sağlığı, gələcək işlərinizdə uğurlar arzu edirik.

# MÜHARİBƏ VETERANININ ÖZÜ VƏ SÖZÜ

Müharibə veteranı cəmiyyətin dinamik güclərini vahid ideya ətrafında səfərbər etmək üçün addım-addım hədəfə çatmağı bacaran bir mənəvi qüvvədir. O, zəngin peşə və həyat təcrübəsi əsasında strateji və mütərəqqi düşüncə tərzinə malik olaraq gənc nəslin sonsuz inam və rəğbətini qazanmaqdadır. Müharibə veteranı gənc nəslin mənəvi aləminə təsir edə bilən yeganə qüvvə deyil. Lakin onlar ərazi bütövlüyümüzün, milli dövlətçiliyimizin qorunması üçün ağır səngər həyatı yaşayan, doğma yurdun azadlığı naminə sinəsini düşmən gülləsinə qarşı qalxan edən fədakar qüvvə kimi cəmiyyət daxilində mənən sağlam sayılan, çox sevilən və rəğbət qazanan bir təbəqəni təmsil edirlər.

Müharibə veteranı ünsiyyət zamanı ona yönələn hörmət hesabına asanlıqla qəlb yaxınlığı yaradır və vətənpərvərlik ideyasının gerçəkləşməsi yolunda qarşıya çıxan sədləri, ehtimal edilən hər cür maneələri aşıb keçə bilir. Xalq arasında onun sözünün çəkisi böyükdür. Vətəndaş cəmiyyətində veteranın ictimai nüfuzu öz optimal səviyyəsindən heç vaxt aşağı düşməməlidir. Bizim üçün ən vacib məsələ ictimaiyyətin bütün təbəqələrinin, xüsusən gənclərin vətən sevgisini gücləndirməkdən ibarətdir. Ölkəmiz üzrə bu sahədə köklü işlər görülür. Geniş mənada mütəşəkkil həyata keçirilən vətənçilik hərəkatı təsirli nəticə verməkdədir. Vətəni sözdə yox, öz real əməli işlərində sevərək yaşadanların sayı artmaqdadır. Ən tutarlı fakt kimi qeyd edə bilərik ki, Silahlı Qüvvələrimizin uğurlu aprel döyüşləri müharibə veteranlarımızın dəyərli bir qüvvə olduğunu şərtləndirmiş və xalqımızın çox vətənpərvər xalq olduğunu sübuta yetirmişdir.

Prezident İlham Əliyev Ağdam rayonuna səfəri çərçivəsində ictimaiyyət nümayəndələri ilə görüşündə belə demişdir: "...Aprel döyüşləri bizim tarixi qələbəmizdir. Azərbaycan xalqı, Azərbaycan Ordusu bir daha öz gücünü göstərdi - həm vətəndaşlar, həm hərbçilər. Hərbçilər döyüş meydanlarında qəhrəmanlıq, şücaət göstərmişlər, düşmənə layiqli cavab vermişlər, işğal edilmiş ərazilərimizin bir hissəsini azad etmişlər. Vətəndaşlar isə bax burada, bu yerdə, o vaxt dağıdılmışbu evin önündə möhkəm dayanaraq düşmənə Azərbaycan xalqının iradəsini göstərdi. Göstərdi ki, Azərbaycan xalqı heç nədən qorxmur. Azərbaycan öz vətənində yaşayır və yaşayacaqdır. Cəbhəyanı bölgələrdə yaşayan vətəndaşların bir nəfəri də yerindən tərpənmədi. Ermənilər işğal olunmuş torpaqlarımızın bir hissəsindən qaçıb getdilər, biz dayandıq, çünki biz öz torpağımızdayıq..." Doğrudan da, vətənpərvərliyin real nəticələri insana yüksək xoş duyğular və tükənməz həyat eşqi bəxş edir. Bu sahədə əsl zövqə sahib olmaq üçün özün vətənpərvər olmalısan. Təbii olaraq bu gün fiziki sağlamlığı ilə bağlı bəzi məhdudiyyətlərə görə müharibə veteranlarının bir qismi işləmək iqtidarına malik deyil. İqtisadiyyatımızın müxtəlif sahələrdə əmək fəaliyyəti göstərənlər də var. Hərbi vətənpərvərlik ideyalarının təbliğində onların fəaliyyət xətti əmək fəaliyyəti obyeykti baxımından ayrı olsa da əksər hallarda birləşir və birgə çalışma gəncliyin iç dünyasına daha səmərəli toxumlar səpir. İstər istehsal, istərsə də qeyri-istehsal sahələrində əmək fəaliyyəti göstərən müharibə veteranların vətənçilik çalışmaları arasında, demək olar ki, fasilə olmur.

Mən 701 saylı hərbi hissənin veteranlar şurasının fəal üzvü kimi müxtəlif hərbi vətənpərvərlik tədbirlərində iştirak edirəm. İstər gənclərlə keçirilən görüşlərin, istər bəstələnmiş döyüş ruhlu mahnıların, istərsə də igid döyüşçülərimizin mənəvi əzəmətini özündə parlaq surətdə əks etdirən rəsm əsərlərinin gənc qəlblərə sirayətedici təsiri ölçüyəgəlməzdir. Qazanılmış nəticə həqiqətən çox qənaətbəxşdir. Hər dəfə gənclərimizin yurd təəssübkeşliyi bizi heyran edir.

Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə köməyi hesabına ötən il keçirdiyimiz tədbirlərlə bağlı qısa təəssüratımı bölüşmək istəyirəm. Ehtiyatda olan polkovnik Əzizağa Qənizadənin fəal təşkilatçılığı sayəsində "Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda gedən hərbi əməliyyatlarda hərbi hissə döyüşçülərinin kütləvi qəhrəmanlıq nümunələri" mövzusunda müxtəlif qurumlarda təşkil etdiyimiz görüşlərdə ünsiyyət zamanı gənclərin bir şəxsiyyət kimi özünü qiymətləndirməsi, öz şəxsi keyfiyyətləri və qabiliyyəti hesabına yerinə yetirdiyi vətəndaşlıq borcunu, həmçinin öz ictimai əhəmiyyətini yaxşı dərk etməsi bizi çox məmnun etmişdir. Kütləvi qəhrəmanlıq nümunələri ilə bağlı döyüşçülərin çıxışını dinlədikdən sonra fərdi ünsiyyət zamanı görüşün səmərəsi barədə gənclər tərəfindən səslənən fikirləri açıqlamaq istəyirəm: - İndi yaxşı anladım ki, Qarabağ müharibəsi barədə əsl həqiqətləri döyüşçülərin dilindən eşitmək lazımdır. Biz məğlub ordu deyilik...

- Vətənin müdafiəsi uğrunda şəhid olmaq hər kəsə nəsib olmayan böyük bir şərəfdir...

- Sizin görüşün təsirindən mən çox başqalaşdım. Doğma torpağın azadlığı naminə döyüşmək çox qürurvericidir...

- Həqiqətən Azərbaycan Ordusu Cənubi Qafqazda ən güclü ordu sayılır... Qazanılmış təcrübəyə əsasən demək olar ki, vətən ideyalı görüşlər üçün vahid nümunə yoxdur. Ən başlıcası odur ki, səmimi və təbii münasibətlər zəminində hərtərəfli anlaşma əldə edilməlidir. Bir də ki, ürəkdən hazırlanan görüş həmişə yaxşı səmərə verir. Onu da demək lazımdır ki, müharibə veteranı ildən-ilə yaşa dolsa da, ruhən qocalmamalı və öz şəxsiyyətinin daha da təkmilləşdirilməsi ilə məşğul olmalıdır. Çünki o, ağır sınaqlardan çıxmış təcrübəli bir örnəkdir. Heç bir halda səhv etməməli və bu məqsədlə öz statusundan irəli gələn vəzifələrin yerinə yetirilməsi, arzulanan ideyaların gerçəkləşməsi naminə daim öz xarakterini cilalamalıdır. Hətta ən adlı-sanlı müharibə veteranı da öz üzərində işi bitmiş hesab etməməlidir. Müharibə veteranının özü və sözü müqəddəs hesab edilməlidir. Cəmiyyətin inkişaf qanunauyğunluqlarından irəli gələn məsələlərin həllinə öz töhfəsini vermək, var-gücünü səfərbər etmək, mənəvi dəstəyi ilə fərqlənmək müharibə veteranının fəaliyyət bazasının konseptual əsaslarını təşkil edir. Unutmaq olmaz ki, müharibə veteranının əxlaqi-etik ucalığı, milli dövlətçiliyə sədaqəti, doğma yurda sonsuz sevgisi əvəzedilməz mənəvi sərvətdir. Bu sərvət yetişməkdə olan oğul və qızlarımıza mənəvi tellər vasitəsilə bəxş edilməlidir.

**İbrahim MƏSİMOĞLU,**
**e.o polkovnik-leytenant**

# Mənalı və şərəfli ömür yolu

Cəmaləddin Atamalı oğlu Zeynalov 1938-ci ilin fevral ayının 3-də Ağsu rayonunun Kəndoba kəndində anadan olmuşdur.

C.A.Zeynalov orta məktəbi bitirdikdən sonra, 1957-ci ildə Xalq Təsərrüfat İnstitutuna daxil olaraq iqtisadçı ixtisası almışdır. İlk əmək fəaliyyətinə "Azərkəndtexnika" birliyinin Ağsu rayon şöbəsində baş iqtisadçı işləməklə başlamışdır. Həmin ildə Ağsu rayon Komsomol Komitəsinin ştatdankənar katibi seçilmişdir. Daha sonra Ağsu rayon Komsomol Komitəsinin birinci katibi olmuşdur.



Ömrünün çoxunu öz ixtisası üzrə işləyən Cəmaləddin Zeynalov 1985-1999-cu ilə kimi Ağsu rayon Aqrar Sənaye Birliyində aparıcı mütəxəssis kimi fəaliyyət göstərmişdir. Eyni zamanda 1996-1999-cu ilə kimi Ağsu rayon Aqrar Sənaye Birliyi üzrə YAP ilk təşkilatın sədri olmuş, YAP ilk təşkilatların yaradılmasında xüsusi fəallıq göstərmişdir.

1988-ci ildə Əmək Veteranı fəxri adına layiq görülərək, Əmək Veteranı medalı ilə təltif edilmişdir. 1999-cu ildən görə təqaüdə çıxmışdır. 2008-ci ilin mart ayından Ağsu RVT-nin sədri seçilmişdir. 2013-cü il Ağsu rayon İcra Hakimiyyətinin qərarları ilə gənclərdə hərbi vətənpərvərlik ruhunun yüksəldilməsində, veteranların huquqlarının müdafiə olunmasında və rayon veteranlar şurasındakı xüsusi fəalyyətinə görə fəxri fərmanlara və mükafatlara layiq görülmüşdür.

Veteranlara göstərilən diqqət və qayğıya görə Respublika Veteran Təşkilatı onu "Veteran həmrəyliyi" medalı ilə təltif etmişdir.

C.A.Zeynalov Təşkilata rəhbərlik etdiyi dövrdə daimi komissiyaların fəaliyyətinə nəzarət gücləndirilmişdir, təşkilatın fəaliyyəti nizamlanmışdır. O, veteranlara daima diqqət və qayğı göstərir, veteranların hüquqlarının qorunması sahəsində, gənclərdə vətənpərvərlik ruhunun yüksəldilməsində mühüm işlər görür.

Cəmaləddin Zeynalovun 3 fevral 2017-ci il tarixində 79 yaşını qeyd etdik. Bir daha onu təbrik edir, uzun ömür, möhkəm cansağlığı arzulayırıq.

**Nurulla Nuriyev,**
**Ağsu rayon Veteran Təşkilatının Vətənpərvərlik üzrə daimi komissiyanın sədri**

# Hüquqi məsləhətlər

## “Müharibə veteranı, Silahlı qüvvələr veteranı adlarının və vəsiqələrinin verilməsi qaydası”

Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatına “Müharibə veteranı, Silahlı qüvvələr veteranı adlarının və vəsiqələrinin verilməsi qaydası” barədə ərizələr daxil olur.

Bu suallara ətraflı cavab verilməsi Veteranlar Təşkilatının sosial müdafiə bölməsinin baş mütəxəssisi Əliyev Əliş Muxtar oğluna tapşırılıb.

***Cavab:***

- Müharibə veteranı, Silahlı qüvvələr veteranı və əmək veteranı adlarının verilməsi qaydası və şərtləri Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1995-ci il 22 sentyabr tarixli 216 saylı qərarı ilə tənzimlənirdi.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 13 may 2015-ci il 187 nömrəli qərarı ilə “Müharibə veteranı, Silahlı qüvvələr veteranı verilməsi qaydası və şərtləri haqqında əsasnamənin və müvafiq vəsiqələrin nümunəsinin, eskizinin və təsvirinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1995-ci il 22 sentyabr tarixli 216 nömrəli qərarında dəyişikliklər edilmişdi.

Bu dəyişikliklərə əsasən “Silahlı qüvvələr veteranı” adı və müvafiq veteran vəsiqəsi Azərbaycan Respublikasının Müdafiə nazirliyi, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikasının Milli Təhlükəsizlik nazirliyi, Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidməti, Ədliyyə nazirliyi, AR Fövqəladə Hallar nazirliyi, AR Dövlət Sərhəd Xidməti, AR Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti və Naxçıvan MR-nın Ədliyyə nazirliyi tərəfindən onların yaratdıqları müvafiq komissiyanın rəyinə əsasən verilir.

O cümlədən, Respublikanın Hərbi məhkəmələrində və hərbi prokurorluq orqanları sistemində xidmət edən hərbi qulluqçulara Azərbaycan Respublikasının Ali Məhkəməsində və Respublika Prokurorluğunda yaradılan komissiyalarının rəyinə əsasən Azərbaycan Respublikasının Müdafiə Nazirliyi tərəfindən verilir.

İndiyə qədər əvvələr ehtiyata və istefaya buraxılmış hərbi qulluqçulara bu ad Müdafiə, Daxili İşlər, Milli Təhlükəsizlik Nazirliklərinin təqaüdə təyin edən orqanları tərəfindən hazırlanan sənədlər əsasında verilib.

Dəyişikliklərə əsasən bundan sonra əvvələr ehtiyata və istefaya buraxılmış hərbi qulluqçulara bu ad Müdafiə, Daxili İşlər nazirliyi, Milli Təhlükəsizlik nazirliyi, xüsusi Dövlət Mühafizə Xidməti və Naxçıvan MR-nın Ədliyyə nazirliyi tərəfindən veriləcək.

Bu günə qədər “Silahlı Qüvvələr veteranları” adı müvafiq veteran vəsiqəsi Müdafiə Daxili İşlər, Milli Təhlükəsizlik, Ədliyyə Nazirlikləri, Dövlət Sərhəd Xidməti və Naxçıvan MR Ədliyyə nazirliyi tərəfindən onların yaratdıqları müvafiq komissiyalarının rəyinə əsasən verilib. Vəsiqənin hazırlanması xərcləri həmin vəsiqəni verən nazirliyin hesabına ödənilib.

Dəyişikliyə əsasən bundan sonra “Silahlı Qüvvələr veteranı” adı və müvafiq veteran vəsiqəsi həm də Fövqəladə Hallar nazirliyi və Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti tərəfindən onların yaratdığı müvafiq komissiyaların rəyinə əsasən veriləcək.

Qeyd edək ki, “Silahlı Qüvvələr vəsiqəsi Respublikanın Hərbi məhkəmələrində və Hərbi Prokurorluq orqanları sistemində xidmət edən hərbi qulluqçulara Ali Məhkəmədə və Respublika Prokurorluğunda yaradılan komissiyaların rəyinə əsasən Müdafiə nazirliyi tərəfindən verilir.

Müharibə veteranı adı və müvafiq veteran vəsiqəsi Azərbaycan Respublikası Müdafiə, Daxili İşlər, Milli Təhlükəsizlik nazirlikləri tərəfindən onların yaratdıqları müvafiq komissiyalarının rəyinə əsasən verilir. Vəsiqənin hazırlanması xərcləri həmin vəsiqəni verən nazirliyin vəsaiti hesabına ödənilir.

Əmək veteranı adı Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1995-ci il 22 sentyabr tarixli 216 nömrəli qərarı ilə təsdiq edilmiş əsasnamədə göstərilən şəxslərə, onların işlədikləri idarə, müəssisə, təşkilatların yuxarı mərkəzi icra orqanı tərəfindən verilir.

Təqaüdə çıxmış şəxslərə bu ad onların axırıncı işlədikləri müəssisənin yuxarı mərkəzi icra orqanı tərəfindən verilir.

Bütün başqa hallarda, o cümlədən müəssisənin yuxarı mərkəzi icra orqanı olmadıqda, işləyən, yaxud da pensiyaya çıxmış şəxslərə veteran adı və vəsiqə Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən verilir.

Əmək veteranı adını almaq istəyən şəxslər, ərizə və həmin adı almaq üçün bu əsasnamədə nəzərdə tutulan təsdiqedici sənədlərlə işlədiyi müəssisənin müdiriyyətinə müraciət edir. Əgər həmin şəxs işləmirsə, sonuncu iş yerinə müraciət edir.

Ərizə və digər zəruri sənədlər qərar qəbul etmək üçün üç həftə müddətində həmin müəssisənin yuxarı mərkəzi icra orqanına (nazirlik, komitə, baş idarə və s.) göndərilir. Yuxarı mərkəzi icra orqanı olmadıqda sənədlər Əmək və Əhalinin Sosial müdafiəsi Nazirliyinə göndərilir.

Əmək veteranı adı verilmə haqqında qərar bir ay müddətində Respublikanın yuxarı mərkəzi icra orqanları tərəfindən qəbul edilir.

Əmək veteranı vəsiqəsinin hazırlanması xərcləri həmin vəsiqəni verən orqanların vəsaiti hesabına ödənilir.



***Əliş Əliyev***
***Respublika Veteranlar Təşkilatının Veteranların sosial müdafiəsi bölməsinin baş mütəxəssisi***

# XOCALI SOYQIRIMI - XX ƏSRİN FACİƏSİ

**Bütövlükdə Azərbaycan xalqına qarşı yönəldilmiş Xocalı soyqırımı öz ağlasığmaz gəddarlığı və qeyri-insani cəza üsulları ilə bəşər tarixində bir vəhşilik aktıdır. Bu soyqırım, eyni zamanda, bütün bəşəriyyətə qarşı tarixi bir cinayətdir.**

**Heydər Əliyev**

Xocalı soyqırımı Azərbaycan tarixinə ən dəhşətli və faciəli səhifələrdən biri kimi daxil olmuşdur. Azərbaycanın ümummilli lideri Heydər Əliyev Xocalı soyqırmının on illiyi münasibətilə Azərbaycan xalqına müraciətində qeyd etmişdir: "Bu amansız və qəddar soyqırım aktı insanlıq tarixinə ən qorxulu kütləvi terror aktlarından biri kimi daxil oldu".

Qeyd etmək lazımdır ki, Azərbaycan xalqı 200 il ərzində erməni millətçi-şovinistlərinin davamlı olaraq etnik təmizləmə, soyqırım siyasətinə məruz qalmışdır. Azərbaycan xalqı tarixi torpaqlarından qovulmuş, qaçqına, məcburi köçkünə çevrilmiş və bütün bunlar ermənilər tərəfindən kütləvi qırğınlarla müşayət olunmuşdur. Azərbaycanlıların öz tarixi-etnik torpaqlarından qovulması sovet dövründə də davam etmişdir.1948-1953-cü illərdə Ermənistandan 150 min azərbaycanlı deportasiya olunmuş, Azərbaycanın Kür-Araz düzənliyində yerləşdirilmişdir. 1988-ci ildə isə öz tarixi torpaqlarında yaşayan 250 min azərbaycanlı bu ərazidən qovulmuş, bununla da Ermənistan monoetnik dövlətə çevrilmişdir. 1988-ci ildən Dağlıq Qarabağ ətrafında başlayan hadisələr erməni ideloloqlarının "dənizdən dənizə Ermənistan" adlı sərsəm bir ideyasını reallaşdırmaq cəhdi kəndlərin, şəhərlərin dağılması, on minlərə günahsız insanın ölümü, yüz minlərlə azərbaycanlının öz tarixi torpaqlarından didərgin düşməsi ilə nəticələndi.

1992-ci il fevralın 26-da Ermənistan hərbi birləşmələri 7 min əhalisi olan Xocalı şəhərində genosid aktı həyata keçirdi. Ermənistan hərbi birləşmələrinin şəhərə hücumu zamanı burada yalnız 3 minə yaxın insan qalmışdı. Çünki, mühasirədə qaldığı 4 aydan artıq zaman ərzində blokadada olduğu üçün əhalinin xeyli hissəsi şəhərdən çıxmaq məcburiyyətində qalmışdı. Xocalı soyqırımı zamanı 613 nəfər ödürüldü, 1000 nəfər müxtəlif yaşlı dinc sakin aldığı güllə yarasından əlil oldu. 106 nəfər qadın, 63 azyaşlı uşaq, 70 qoca öldürüldü. 8 ailə tamamilə məhv edildi, 25 uşaq hər iki valideynini, 130 nəfər valideyinlərindən birini itirdi. Faciə baş verən gecə 1275 nəfər dinc sakin girov götürüldü, onların 150-sinin taleyi indi də məlum deyil.

Şəhər əhalisinin bir hissəsi zorakılıqdan qaçıb qurtarmaq istəyərkən əvvəlcədən düzəldilmiş pusqularda qətlə yetirilmişdir. Rusiyanın "Memorial" hüquq-müdafiə mərkəzinin məlumatına əsasən, dörd gün ərzində Ağdama Xocalıda qətlə yetirilmiş 200 azərbaycanlının meyiti gətirilmiş, onlarla meyitin təhqirə məruz qalması faktı aşkar edilmişdir. Ağdamda 181 meyit (130 kişi və 51 qadın, o cümlədən 13 uşaq) məhkəmə-tibbi ekspertizasından keçirilmişdir. Ekspertiza zamanı müəyyən edilmişdir ki, 151 nəfərin ölümünə güllə yaraları, 20 nəfərin ölümünə qəlpə yaraları səbəb olmuş,10 nəfər küt alətlə vurularaq öldürülmüşdür. Hüquq-müdafiə mərkəzi diri adamın baş dərisinin soyulması faktını da qeydə almışdır.Ermənilər sağ qalmış insanlar üzərində tamamilə təhqiredici hərəkətlər həyata keçirmişdilər. Onların başının dərisini soymuş, başlarını və bədəninin digər orqanlarını kəsmiş, uşaqların gözlərini çıxarmış, hamilə qadınların qarnını yarmışdılar. Hücum zamanı Xocalıda istifadəsi qadağan olunmuş 5,45 kalibrli patronlardan və kimyəvi silahlardan istifadə edilmişdir. Bütün bunlar Ermənistanın Cenevrə konvesiyasının protokollarını pozaraq, müharibə qaydalarına zidd olaraq dinc sakinlərə qarşı həyata keçirilən soyqırım olduğunu təsdiqləyir.

Xocalı soyqırımının xüsusi amansızlıqla törədilməsi rus, gürcü, ingilis, fransız, alman, amerikalı və digər ölkələrin vətəndaşı olan jurnalist və publisistləri dəhşətə gətirmişdir.

Xocalı qaçqınlarının BMT, Avropa İttifaqı və Avropa Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatına müraciətində deyilir: Artıq 10 ildən artıqdır ki, biz, qaçqın vəziyyətinə düşmüş xocalılar, ürək ağrısı və eyni zamanda böyük ümidlə bütün dünyanın sülhsevər xalqlarına, beynəlxalq təşkilatlara müraciət edirik. Sizdən xahiş edirik, erməni hərbi təcavüzü nəticəsində bizim başımıza gələn bəlaya laqeyd qalmayasınız. Biz inanırıq ki, dünyanın BMT, Aİ və ATƏT kimi kifayət qədər nüfuzlu beynəlxalq təşkilatları, sülhsevər ölkələri Ermənistan kimi dövlətin belə təcavüzkarlığına və özbaşınalığına qarşı tədbir görəcəklər.

Dünyada qəbul olunmuş beynəlxalq konvensiyalar, ümumbəşəri qanunlar Xocalı faciəsi kimi soyqırımları pisləyir, yolverilməz olduğunu bildirirlər. Azərbaycan xalqı 1948-ci il 9 dekabr "Soyqırım cinayətinin xəbərdarlıq edilməsi və cəzalandırılması" konvensiyasını rəhbər tutaraq, Ermənistan Respublikasına qarşı BMT-nin Beynəlxalq məhkəməsində iddia qaldırmaq üçün bütün hüquqi əsaslara malikdir. Dünya bilməlidir ki, bu cinayət, təkcə Azərbaycan xalqına qarşı deyil, həm də bütün sivilizasiyalı dünyaya, bəşəriyyətə qarşı yönəldilmişdir. Bu gün Ermənistanda mühüm dövlət postları tutanlar, Seyran Ohanyan, Serj Sarkisyan eləcə də Robert Köçəryan və digərləri baş vermiş soyqırımın günahkarları kimi beynəlxalq məhkəmə qarşısında cavab verməlidir.

Cinayət cəzasız qalmamalıdır.

***İsmayıl İsmayılov***

AZƏRBAYCAN VETERANI

04 (77) 28 fevral 2017-ci il

# ПОБЕДА И ПАМЯТЬ

## УКРОТИТЕЛЬ ТИГРОВ

Никто не забыт, ничто не забыто!
Мы героев любим, помним,
Память чтим их от души!

У наводчика Андрея Самойлова был приятный голос. И петь он любил, если, конечно, позволяла обстановка. А здесь, в Курской степи, в первых числах июля сорок третьего года по вечерам стояла такая тишина, что порой казалось, будто и войны на земле нет. Лежат парни в высокой. давно не кошенной траве, и то ли дремлют, то ли прислушиваются к соловьиным трелям, долетающим из рощицы, что на склонах пологого кургана.

Соловьи, соловьи, не тревожьте солдат,

Пусть солдаты немного поспят...

Андрей поет вполголоса. Приподняв голову, стриженную под «ноль», слушает песню командир расчета старший сержант Хади Кинжаев, повернулся на спину, смотрит в густо усыпанное звездами небо ящичный Вася Макаров, грызет крепкими зубами былинку установщик Микола Якименко, сидит, обхватив двумя руками колени, заряжающий Баязит Касимов, зажал в могучем кулаке кресало и трут, не решаясь высечь огонь, подносчик Ульян Осипов.

Слушают песню солдаты. И каждый думает о своем. Осенью 1938 года провожали Хади Кинжаева в армию. Разве мог он думать, что на много лет покидает родной кишлак Маданьят. В Таджикистане скоро начнут собирать хлопок, там каждый клочок земли на учете. А тут вон какая степь - ни конца ей нет, ни края. И ровная, как стол. Вчера на батарею приезжал командир полка майор Шалимов. Рассказывал, что немцы хотят отсюда, из-под Курска, начать новое наступление на Москву. Танков собрали видимо-невидимо.

- Помните, часто наш истребительно-противотанковый артиллерийский полк стоит на самом танкоопасном направлении, - сказал Шалимов, - земля - наша главная защита. Не жалейте рук. Окапывайтесь поглубже.

Шалимов - человек суровый. Улыбка редко появлялась на его скуластом лице. Но на этот раз он улыбнулся солдатам, и Хади, к своему удивлению, понял, что командир у них добрый, но очень застенчивый человек. А лет ему, пожалуй, и тридцати нет.

Почти весь день расчет 76 - миллиметрового орудия старшего сержанта Хади Кинжаева «зарывается в землю». А грунт здесь жесткий, как камень, больше месяца ни одного дождя.

Через несколько дней имя Кинжаева станет известно всему фронту. Главное политическое управление Красной Армии в листовке, посвященной ему, написшет:

«Когда немцы начали свое бесславное наступление на Курск в июле 1943 года, Хади Кинжаев был командиром противотанкового орудия. В его орудийный расчет входили бойцы различных национальностей: рядом с командиром орудия таджиком Кинжаевым сражались и украинец, и татарин, и мордвин, и мариец, и русский. И все они были охвачены одним чувством, одним желанием уничтожить ненавистного врага, выгнать его с родной земли. Артиллеристы Кинжаева говорили на шести языках, но прекрасно понимали друг друга, когда нужно было бить врага. Они хорошо знали свое дело. Хади Кинжаев настойчиво обучал их и добился меткой и быстрой стрельбы».

А сейчас орудийный расчет Кинжаева лежал в безмолвной степи и слушал негромкую песню Андрюши Самойлова. Но дослушать песню до конца солдатам не пришлось. От комбата пришел посыльный и передал приказ переменить огневую позицию.

Через два часа артиллеристы уже на новом месте основательно «зарылись» в землю и приготовились к встрече врага. Из деревни, что раскинулась на высоте, появились танки и самоходные орудия. Расчет Кинжаева занял свои места.



Старший сержант расстегнул ворот гимнастерки. Он следил за двумя танками, которые двигались прямо на позицию его орудия.

«Фашисты нас не видят. Мы хорошо замаскировались, - размышлял Кинжаев, - Подпустим их поближе и ударим наверняка».

Самый нетерпеливый в расчете - ящичный Василий Макаров, маленький, подвижный, как ртуть, в прошлом водопроводчик из Йошкар-Олы, подал голос:

- Командир, чего мы ждем? Пора открывать огонь...Но встретив сердитый взгляд старшего сержанта, замолчал.

Все получилось как нельзя лучше. Снаряды точно нашли цель. Метрах в семистах от орудия горели два подбитых немецких танка, чадящими столбами подымался к небу дым.

- Оцедило!... - восторженно кричал Якименко.

- Остынь, Микола, - хлопнул по взмокшей спине товарища Самойлов. - Это, к сожалению, не последние танки у Гитлера.

После неудачной танковой атаки немцы обрушили на наши позиции десятки пикирующих бомбардировщиков. Одну группу воздушных пиратов сменяла другая. Все смешалось - земля и небо. Степь дрожала, как в лихорадке. Даже не верилось, что только вчера ночью здесь стояли тишь да благодать, а в той сожженной снарядами и бомбами рощице выводили рулады знаменитые соловьи.

Фашистские бомбы не причинили расчету существенного ущерба. Артиллеристы хорошо окопались. Прав оказался майор Шалимов - земля защитила бойцов.

На рассвете следующего дня гитлеровские танки снова двинулись в атаку. Противник рассчитывал, что советские войска после таких яростных бомбовых ударов не смогут оказать ему серьезного сопротивления. В полдень перед огневой позицией Кинжаева появилось 25 танков. Снаряды рвались все ближе и ближе. Но расчет старшего сержанта не отвечал, чтобы не обнаружить своего расположения. Артиллеристы понимали: поразить «тигра» наверняка лучше всего только с близкого расстояния.

Хади в бинокль разглядывал «тигр». Об этой новой своей машине гитлеровцы много писали, называли ее непобедимой.

- Советские снаряды «тигру» не страшны, - хвастливо заявляли фашисты.

Теперь Кинжаеву и его подчиненным предстояло вступить с этим бронированным чудовищем в поединок.

Танк, рыча мотором, неторопливо, словно уверенный в своей безнаказанности, полз на Хади и его товарищей. И в сердце советского бойца вспыхивала жгучая ненависть к врагу, неистребимое желание уничтожить его сейчас, сию минуту.

- Бронебойным! - скомандовал Кинжаев.

Он смотрел на русый мальчишеский затылок Самойлова. склонившегося над прицелом.

С короткими интервалами прозвучали три выстрела. «Тигр» завертелся на месте и задымил. В нем, видимо, взорвался боекомплект. Тяжелую, многопудовую башню снесло метров за сто, легко, как соломенную шляпу в ветреный день с головы прохожего.

Вскоре они подбили еще один «тигр». Но тут им пришлось уйди в укрытие: над огневой носились четыре вражеских истребителя. Вблизи рвались фашистские мины. Истекая кровью, лежали в раненые, ящечный Вася Макаров, заряжающий Беязит Касимов, наводчик Андрей Самойлов. Настал момент, когда у орудия остался один Кинжаев. Танки повернули вправо. Стрелять по ним было удобно. И старший сержант успевал сам подтаскивать снаряды, заряжать, наводить, вести огонь. Кинжаев попал одному «тигру» в бензобак, поджег его, второму заклинил башню, а третьему сорвал гусеницу.

Враг усилил огонь по орудию. Все гуще ложились снаряды и мины. Кинжаев получил ранение, но продолжал стрелять. Вдруг в стволе орудия заклинило гильзу снаряда.

Обливаясь кровью, Хади схватил банник и вытолкнул застрявшую гильзу. Орудие снова ожило.

В этот момент прямым попаданием орудие было разбито. Казалось, все кончено. Но оглушенный, истекающий кровью Кинжаев взял противотанковое ружье и пополз в окоп, отрытый чуть в стороне от огневой позиции. Очередной танк старший сержант подбил из ПТР.

Вот как описан подвиг Хади Кинжаева в наградном листе:

«Командир орудия старший сержант Кинжаев в боях с фашистскими захватчиками 6 и 7 июля 1943г. в районе д. Покровка показал образцы геройства, отваги и смелости. Отражая в течение двух суток ожесточенные атаки танков противника, под беспрерывной интенсивной бомбардировкой 30 - 40 самолетов, командир орудия ст. сержант Кинжаев умело управлял огнем и со своим расчетом сжег 2 средних и 2 тяжелых танка Т-6. Когда весь расчет был выведен из строя, командир орудия сам продолжал вести огонь по противнику и сжег еще 2 средних и 2 тяжелых танка противника».

Орден Ленина и Золотую Звезду Героя Хади Кинжаеву вручил в Кремле Михаил Иванович Калинин. В домике Кинжаевых в кишлаке Маданьят на почетном месте висит снимок: всесоюзный староста пожимает руку воину-таджику, укротителю фашистских «тигров».

АЛЕКСАНДР ГРИТЧЕНКО

# Şükürov Əşrəf -70



Şükürov Əşrəf Həzi oğlu 1947-ci ilin fevral ayının 20-də Zəngilan rayonunun Vənətli kəndində anadan olmuşdur. 1965-ci ildə Zəngilan şəhər orta məktəbini bitirmiş, həmin ildə Həsən bəy Zərdabi adına o vaxtki Kirovabad dövlət pedaqoji institunun tarix fakultəsinə daxil olmuş, 1969-cu ildə həmin institutun tarix fakultəsini bitirmişdir. 1969-1971-ci illərdə Zəngilan rayon komsomol komitəsində şöbə müdiri, 1971-1972-ci illərdə hərbi xidmətdə olmuşdur. 1972-1975-ci illərdə isə rayon komsomol komitəsinin katibi işləmişdir. 1975-1977-ci ildə Bakı ali partiya məktəbində təhsil almışdır. Zəngilan rayon partiya komitəsində təşkilat şöbəsinin müdiri, Zəngilan şəhər ərazi icra nümayəndəsi və başqa məsul vəzifələrdə işləmişdir. 2009-cu ilin iyun ayında Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə "Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə təltif edilmişdir. Qarabağ müharibəsi veteranıdır, ehtiyatda olan zabitdir.

Onu 70 illik yubileyi münasibəti ilə təbrik edir, fəaliyyətində müvəffəqiyyətlər arzu edirik.

# 23 saylı tam orta məktəbdə tədbir

10 fevral 2017-cı il tarixində Gənclərin hərbi vətənpərvərlik ruhunun gücləndirilməsi məqsədi ilə Respublika Veteranlar Təşkilatının gənclərin hərbi vətənpərvərlik şöbəsinin müdiri e.o polkovnik Adil Haqverdiyev, baş mütəxəssis Hacıyev Nəbi Bakı şəhərində 23 saylı tam orta məktəbdə keçirilən tədbirdə iştirak etmişdirlər.



Xocalı soyqırımına həsr olunmuş tədbiri məktəbin direktoru Yuliya Kərimova açaraq, qonaqları salamlamış və bu cür tədbirlərin gənclərin vətənpərvərlik ruhunda böyüməsi üçün əhəmiyyətli olmasından bəhs etmişdir. Qonaqlardan e.o polkovnik Adil Haqverdiyev Xocalı faciəsi haqqında şagirdlərə məlumat vermiş və belə bir tədbirin həyata keçirilməsini yüksək qiymətləndirilmişdir. Daha sonra şagirdlələrə öz tövsiyələrini verən polkovnik onların suallarını ətraflı cavablandırmışdır.

Tədbirdə, o cümlədən, Bakı şəhər Təhsil İdarəsinin hərbi metodisti e.o polkovnik-leytenant Qurbanov Mürsəl, tərbiyəvi işlər üzrə müavin Elza Orucova, gənclərin çağrışa qədərki hazırlıq rəhbəri Qalib Paşayev, müəllimələr Olqa Mixailovna Ağayeva, Gültəkin İbrahimova və 23 saylı məktəbin şagirdləri aktiv iştirak etmişdirlər. Tədbir yüksək səviyyədə keçirildi. Sonda xatirə şəkili çəkdirildi.

# Əliyeva Rəna - 80



Əliyeva Rəna Nağı qızı 1937-ci il fevralın 8-də Bakı şəhərində anadan olmuşdur. Uzun müddət kurortologiya sahəsində fəaliyyət göstərmişdir. Əmək veteranıdır. Təqaüdə çıxdıqdan sonra müxtəlif ictimai işlərdə çalışmışdır. Hal-hazırda Rəna xanım Binəqədi rayon Veteranlar Təşkilatı ilə əməkdaşlıq edir, həyata keçirilən tədbirlərdə fəal iştirak edir.

Respublika Veteranlar Təşkilatının kollektivi və Binəqədi rayon Veteranlar Təşkilatı Rəna xanımı 80 illik yubileyi münasibəti ilə təbrik edir ona cansağlığı arzu edir.

## Allah rəhmət eləsin

Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının Rəyasət heyəti və Ağsu rayon İcra Hakimiyyəti İkinci Dünya müharibəsi veteranı

**Əlməhəmməd Məhəmməd oğlu Məmmədovun**

vəfatından kədərləndiyini bildirir, ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.

**"Azərbaycan Veteranı" qəzetinin elektron ünvanına (az.veteran@mail.ru) məqalələrinizi göndərməklə bizimlə əməkdaşlıq edə bilərsiniz.**

**Qeyd edək ki, "Azərbaycan Veteranı" qəzetində dərc olunan məqalələrdəki faktlara və məlumatlara görə müəllif məsuliyyət daşıyır.**

**Əziz oxucular, "Azərbaycan Veteranı" qəzeti üçün abunə yazıla bilərsiniz!**

**Qəzetimizə abunə olmaq üçün:**
**Hesab nömrəsi**
**AZ33İBAZ38090019442437115209**
**6 aylıq abunə haqqı - 7.5 AZN**
**1 illik abunə haqqı - 15 AZN**

**Qeyd: Əziz və hörmətli oxucular, "Azərbaycan Veteranı" qəzetinə abunə olmaq üçün "Azərmətbuatyayımı" ASC şöbələrinə, poçtlara, Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatına və Təşkilatın rayon şöbələrinə müraciət edə bilərsiniz.**

**Əlaqə telefonları: (012) 440- 21-08 012) 497- 63-58 (111)**

***Baş redaktor***
*Ülvi İBRAHİMLİ*
***Məsul katib***
*Səidə ABDULLAYEVA*

*Qəzet Ədliyyə Nazirliyində qeydiyyata alınıb.*
***Təsisçi:*** *Azərbaycan Respublikası Veteranlar Təşkilatının Rəyasət Heyəti*

*"Azərbaycan Veteranı" qəzeti.*
***VÖEN:***
*1701285981*
*verilmə tarixi - 23.11.2011*

***Ünvan:*** *Bakı şəhəri, Nərimanov rayonu, Kaveroçkin küçəsi, 34*
***Əlaqə telefonu: 012*** *440-21-08*
***e-mail:*** *az.veteran@mail.ru*
***Dövlət qeydiyyat nömrəsi*** *- 3486*
***Dövlət qeydiyyat tarixi*** *- 19.10.2011*

*Qəzet ayda iki dəfə "Azərbaycan Veteranı" qəzetinin bilgisayar mərkəzində yığılır, səhifələnir və "Veteran Nəşriyyatı" mətbəəsində nəşr olunur.*
*Qiyməti 60 qəpik*
*Tiraj: 1250*